**AZƏRBAYCAN RESPUBLİKASI**
**AUDİTORLAR PALATASI SƏDRİNİN**
**ƏMRİ**

Bakı şəhəri                    № 39                    19 oktyabr 2012-ci il

Auditorlar Palatasında informasiya azadlığı
üzrə məsul şəxslərin müəyyən edilməsi haqqında

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Auditorlar Palatasının İş Planının (2012-2015-ci illər)" 1.1-ci bəndinin icrasını təmin etmək, Auditorlar Palatasının fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılmasını daha da genişləndirmək və Palatada informasiya axını sahəsində pərakəndəliyə yol verməmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. Auditorlar Palatasında informasiya azadlığı üzrə aşağıdakı tərkibdə məsul şəxslər müəyyən edilsin:

Qəşəm Bayramov - Auditorlar Palatası Aparatının rəhbəri
Səbuhi Gülməmmədov - Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsinin rəisi
Nəcəf Talıbov - Sədrin elmi-metodik məsələlər üzrə müşaviri

2. Auditorlar Palatasının struktur bölmələrinin rəhbərlərinə (M.Abbasov, M.Hacıyev, S.Gülməmmədov, V.Rəhimov) tapşırılsın ki, müvafiq bölmələrin fəaliyyətləri barədə məlumatları bu əmrin 1-ci bəndində göstərilən məsul şəxslərin sorğularına əsasən yazılı surətdə qısa vaxt ərzində hazırlayıb təqdim etsinlər.

3. Auditorlar Palatasında informasiya azadlığı üzrə məsul şəxslərə (Q.Bayramov, S.Gülməmmədov, N.Talıbov) tapşırılsın:

- bir ay müddətində informasiya azadlığı ilə bağlı daxili icraat qaydalarının layihəsini hazırlayıb baxılmaq üçün təqdim etsinlər;
- müxtəlif orqanlardan, ictimaiyyət və KİV tərəfindən edilən sorğu və suallara operativ və keyfiyyətlə müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq cavab verilməsini təmin etsinlər.

4. Bu əmrin icrasına nəzarət sədrin müavini F.İsmayılova həvalə edilsin.

**PALATANIN SƏDRİ**                    **V.NOVRUZOV**